**Azərbaycan Respublikası Prezidentinin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 17 iyun tarixli 1367 nömrəli, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında" 2021-ci il 14 iyul tarixli 1399 nömrəli və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2022-ci il 23 iyun tarixli 1719 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, 12 (I kitab), maddə 1468) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın "İnformasiya sisteminin və ehtiyatının adı" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, 6 (I kitab), maddə 582) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.2-ci bənddə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi"nin 1.2-ci bəndində və 3.4-cü bəndində (birinci halda) "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə, 3.7-ci, 3.9-cu, 3.19-cu bəndlərində və 3.23.7-ci yarımbəndində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 1399 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, 7, maddə 733) 2.2.1-ci yarımbəndində və 3.2-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 23 iyun tarixli 1719 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, 6, maddə 603) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 mart 2023-cü il
2054